**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# "FÜYUZAT" JURNALINDA TƏHSİL-TƏRBİYƏ MƏSƏLƏLƏRİ

İxtisas: 5804.01- Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Həsənova Könül Ədalət qızı**

**Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI 2021**

Dissertasiya Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil pedaqogikası kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Əməkdar elm xadimi, pedaqoji elmlər doktoru, professor
**Fərrux Abbas oğlu Rüstəmov**

Rəsmi opponentlər: pedaqoji elmlər doktoru, professor
**Akif Nurağa oğlu Abbasov**
pedaqogika üzrə elmlər doktoru, dosent
**Şəhla Qasım qızı Əliyeva**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Aytəkin Telman qızı Məmmədova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının ADPU-nun nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: tarix üzrə elmlər doktoru, professor
____________________ **Cəfər Məmməd oğlu Cəfərov**

Dissertasiya şurasının elmi katibi:
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
____________________ **Mələk Əlislam qızı Zamanova**

Elmi seminarın sədr müavini: pedaqoji elmlər doktoru, professor
____________________ **İntiqam Hilal oğlu Cəbrayılov**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Hər bir xalqın tarixi nailiyyətlər qazanmasında, yüksəlişində və sivilizasiyaya qovuşmasında onun təhsil və pedaqoji fikir tarixinin son dərəcə əhəmiyyətli rolu vardır. Bu faktorlar olmadan xalqın irəliyə doğru inkişafı sadəcə olaraq mümkün deyil. Azərbaycan xalqının da maarif, təhsil-tərbiyə və pedaqoji fikir tarixi əlamətdar hadisələrlə zəngindir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev haqlı olaraq demişdir: "Azərbaycan təhsil tarixi hər birimizin fəxr etdiyi nailiyyətlərlə zəngindir"[1].

Hər bir xalq özünün gələcək inkişaf yolunu düzgün müəyyənləşdirmək üçün keçmiş tarixini, mədəniyyətini, ədəbiyyatını, ictimai-siyasi həyatını, o cümlədən təhsil və pedaqoji irsini tədqiq edib üzə çıxarmalı, bu günkü və gələcək nəslə təqdim etməlidir. Belə bir təşəbbüs həm xalqın öz keçmişinə, keçmişdəki mədəni-pedaqoji irsinə hörmət əlamətidir, həm də keçmişdəki nailiyyətlər, uğurlar indiki və gələcək nəsil üçün bir nümunə məktəbi, əlverişli qaynaq və qida mənbəyidir. Ona görə də pedaqoq alimlərimiz XX əsrin 30-40-cı illərindən başlayaraq bu istiqamətdə səmərəli addımlar atmış, dəyərli araşdırmalar aparmış, dissertasiyalar, monoqrafiyalar yazmışdır. 1977-ci ildə "Azərbaycan məktəb və pedaqoji fikir tarixi" kursunun proqramı hazırlanmış, ADPİ-də (indiki ADPU) tədrisinə başlanılmış, Naxçıvan və Tbilisi pedaqoji institutlarında sınaqdan keçirilmişdir.Həmin proqram əsasında sonralar Azərbaycan və rus dillərində dərslik[2]nəşr edilmişdir. Proqramda XX əsrin əvvəllərində mətbuatda təlim-tərbiyə məsələlərinin qoyuluşunun da tədrisi nəzərdə tutulur. "Molla Nəsrəddin" jurnalı pedaqoji aspektdən araşdırıldığı halda, "Füyuzat" jurnalı indiyə kimi ciddi şəkildə pedaqoqlar tərəfindən araşdırılmamışdır. Deməli, mədəni-pedaqoji fikir tariximizdə tədqiqinə ciddi ehtiyac duyulan problemlərdən biri də "Füyuzat" (1906-

---

[1] Prezident İlham Əliyev və Azərbaycanda təhsilin inkişafı (2003-2008). İstanbul. 2008, s.18

[2]Əhmədov H.Azərbaycan məktəb və pedaqoji fikirr tarixi. Bakı, Elm və təhsil, 2016

1907) jurnalında təlim-tərbiyə məsələləridir. "Füyuzat" jurnalı cəmi bir il (1 noyabr, 1906 - 1 noyabr, 1907) nəşr olunmuş, 32 nömrəsi işıq üzü görmüşdür. Buna baxmayaraq o, Azərbaycan ictimai, siyasi, ədəbi, mədəni, maarifçi-pedaqoji mühitində əsaslı iz qoymuş, böyük təsir gücünə malik olmuşdur. Sovet dövründə məcmuə burjua mətbuatı, mürtəce mətbuat orqanı elan edilərək tədqiqatı yasaq olunduğundan diqqətdən kənarda qalmışdır.

"Füyuzat"ın baş mühərriri və ideoloqu böyük mütəfəkkir Əli bəy Hüseynzadə olmuşdur. Azərbaycan və türk xalqlarının tarixində onun misilsiz xidmətləri vardır. O, milli dövlətçiliyimizin əsas ideoloqlarından biri, bayrağımızdakı rəng simvolikalarının ("türkləşmək, islamlaşmaq, müasirləşmək") ideoloji təsisçisidir. Məktəb, maarif və pedaqoji həyatımızın demokratikləşməsində də onun əvəzsiz xidmətləri vardır. Təsadüfi deyil ki, xalqımız və ümumiyyətlə, türk dünyası qarşısında xidmətlərini nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 21 yanvar 2014-cü ildə böyük mütəfəkkirin anadan olmasının 150 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamışdır[1].Əli bəy Hüseynzadənin məfkurə və ideya işığı ətrafına yığışan "füyuzat"çılar çox keçmədən həm Azərbaycan, həm də türkdilli xalqların geniş coğrafiyasında bir ideya bayraqdarı kimi nüfuz qazandılar, müsəlman türklərin yeni dövrün ab-havasına uyğun tərbiyəsində, oyanmasında, milli özünüdərkində, müasirləşməsində, intibah və tərəqqisində əvəzsiz rol oynadılar.

"Füyuzat"çılar xalqımızın maarif, təhsil, məktəb, təlim-tərbiyə həyatının müasirləşməsi, demokratikləşməsi istiqamətində də böyük işlər gördülər. Jurnalın əməkdaşları pedaqoji mühitin, təlim-tərbiyə işlərinin çağdaş dövrün tələblərinə uyğunlaşdırılması yolunda səylə çalışırdılar. Bu mənada onlar "molla nəsrəddin"çilər və maarifçilərlə birlikdə Azərbaycan ziyalı elitasının, maarifpərvərlərinin önündə gedirdilər. Jurnalda maarifçilkilə bağlı verilən məqalələr ictimai-mədəni mühitdə geniş reaksiya doğurur, təsiredici nüfuzu ilə diqqəti cəlb edirdi. Bu mənada o, böyük tərbiyəedici və pedaqoji tribuna ro-

[1] Əli bəy Hüseynzadənin 150 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. "Xalq qəzeti" 21 yanvar 2014

lunu oynayırdı. "Füyuzat" jurnalında təlim-tərbiyə məsələlərinin, jurnalın Azərbaycanda pedaqoji həyatın, maarif mühitinin demokratikləşməsində oynadığı rolu araşdırıb üzə çıxarmaq bir neçə mənada aktual görünür:1) bu, bizim mədəni-pedaqoji irisimizə, habelə xalqımızın milli intibahında və tərəqqisində böyük rol oynamış "füyuzat"çıların xidmətlərinə hörmət əamətdir; 2) milli intibah epoxası kimi səciyyələnən XIX-XX əsrin hüdudlarının pedaqoji hadisələrini, məktəb və maarif həyatını daha yaxşı anlamağa yardım edir; 3) təlim-tərbiyə tariximizin inkişaf yolunu obyektiv şəkildə izləməyə köməklik göstərir; 4) 1918-ci ildə Şərqdə ilk demokratik cümhuriyyətin yaranmasına səbəb olan hərəkatın ictimai-siyasi tərəfləri ilə yanaşı, maarifçi-pedaqoji proseslə, milli tərbiyə ideyaları ilə əlaqəsini də üzə çıxarmağa imkan verir; 5) "füyuzat"çılar xalqın milli intibah və tərəqqi yolu yeni tipli məktəb və maarif ocaqlarından keçir; 6) "füyuzat"çıların təhsil və tərbiyə sahəsində gördükləri işlər bu günkü və gələcək nəsil üçün ibrətamiz bir örnəkdir. Ona görə də onların proqramında elm, maarif, təhsil və tərbiyə məramı ayrıca yer tuturdu. Bu iş onların həm ideya-məfkurəvi dəsti-xəttində, həm də əməli fəaliyyətində mühüm bir xətt təşkil edirdi. Həmin xəttin öyrənilməsi milli intibah dövründəki Azərbaycan pedaqoji fikrini, maarifçilik məfkurəsini, təhsilin demokratikləşməsi və inkişafı uğrunda görülən işləri tam və əhatəli şəkildə anlamağa imkan verir.

Müstəqillik dövründə Azərbaycan elmi ictimaiyyətində jurnalın müxtəlif aspektlərdən tədqiqinə maraq yaranmış, bu istiqamətdə səmərəli işlər görülmüşdür. Ş.Vəliyev, A.Əliyeva jurnalla əlaqəli dissertasiya yazmış, Ə.Mirəhmədov, Y.Qarayev, K.Talıbzadə, T.Köçərli, X.Məmmədov, N.Cəfərov, İ.Həbibbəyli, Ə.Quliyev, K.V.Nərimanoğlu, Ə.Tağıyev, İ.Ağayev, A.Turan, S.Məmmədli, V.Sultanlı, Z.Əsgərli, Y.Qocayeva və O Bayramlı dəyərli mətbu məqalələr ərsəyə gətirmişlər. Jurnalın ədəbi-mədəni, ictimai-siyasi, maarifçi-pedaqoji fikir tariximizdəki müstəsna rolu, əhəmiyyəti nəzərə alınaraq ərəb əlifbasından latın əlifbasına çevrilərək 2007-ci ildə 32

nömrə bütöv komplekt halında nəşr edilmişdir.[1] Nəşrə O.Bayramlı tərəfindən geniş ön söz də yazılmışdır. Jurnal ilə əlaqəli müxtəlif vaxtlarda elmi konfranslar, yubiley gecələri və s. də keçirilmişdir.

Lakin etiraf etmək lazımdır ki, aparılan tədqiqatların, görülən işlərin hamısı filoloqlara aiddir. Jurnalla bağlı filoloqlar müxtəlif səpkili xeyli araşdırmalar ortalığa qoymuşlar və bu işlər davam etdirilməkdədir. Halbuki jurnal Azərbaycanda pedaqoji fikrin inkişafına, təhsil və tərbiyə işlərinin milliləşməsinə və yüksəlişinə, maarifçi-pedaqoji mühitin demokratikləşməsinə də ciddi şəkildə təsir göstərmişdir. Deməli, məcmuənin pedaqoji aspektdən öyrənilməsinə də zəruri ehtiyac vardır. Təəssüf ki, pedaqoji elmimizdə bu sahədə nəzərəçarpacaq bir boşluq vardır. Biz həmin boşluğu doldurmaqdan ötrü bu mövzuda dissertasiya yazmağı qərara aldıq.

**Tədqiqatın obyektini** XX əsrin əvvllərində Azərbaycanda pedaqoji fikrin inkişafı təşkil edir.

**Tədqiqatın predmetni** Azərbaycanda pedaqoji fikrin inkişafında "Füyüzat" jurnalının rolu və füyuzatçıların maarifçilik fəaliyyəti təşkil edir.

**Tədqiqatın məqsədi** XX əsrin əvvəllərində Azərbaycanda maarifçi-pedaqoji hərəkatın yüksəlişində, təhsil-tərbiyə prosesinin və pedaqoji fikrin demokratikləşməsində, müasir məzmun kəsb etməsində, milli tərbiyə nəzəriyyəsinin inkişafında "Füyuzat" jurnalının və "füyuzat"çıların oynadıqları rolu araşdırmaqdan, onların mütərəqqi maarifçi fikrə təsirini tədqiq edib üzə çıxarmaqdan ibarətdir.

**Tədqiqatın vəzifələri** aşağıdakılardır:

-"Füyuzat" jurnalının naşiri və baş ideoloqu Əli bəy Hüseynzadənin həyatını, maarifçilik fəaliyyətini, onun ideyalarının və fəaliyyətinin Azərbaycan pedaqoji mühitinə və fikrinə təsirini üzə çıxarmaq;

-Azərbaycanda maarifçi-pedaqoji fikrin zənginləşməsində, təhsil-tərbiyə prosesinin demokratikləşdirilməsində, yeni məzmunda inkişafında inkişafında "füyuzat"çıların rolunu üzə çıxarmaq;

[1] "Füyuzat" jur., (1906-1907). Tam mətni. (ərəb əlifbasından latın əlifbasına çevirəni, çapa hazırlayanı və ön sözün müəllifi: Bayramlı O.) Təkrarnəşr -Bakı: Çaşıoğlu, 2007, 672 s.

-“Füyuzat”çıların yeni tipli məktəb, təhsilin məzmunu, təlim-tərbiyə vasitələri, böyüməkdə olan nəslin təhsili ilə bağlı fikir və baxışlarını sistemləşdirmək;

-“Füyuzat”çıların ana dili və onun tədrisi barədə mövqeyini, mülahizə və qənaətlərini müəyyənləşdirmək;

-“Füyuzat”çıların Azərbaycan (müsəlman) müəllimlərinin II qurultayı ilə bağlı fəaliyyətlərini təhlil etmək;

-“Füyuzat”çıların tərbiyədə dinin, sosial mühitin, ailənin və qadın tərbiyəsinin rolu barədə baxışlarını şərh etmək;

-“Füyuzat”çıların milli özünüdərk, vətənpərvərlik və hürriyyət tərbiyəsi ilə bağlı “füyuzat”çıların gördükləri nəzəri və əməli işləri üzə çıxarmaq;

-Füyuzat”çıların mənəvi-əxlaqi, əqli, humanizm, beynəlmiləlçilik, əmək və fiziki tərbiyə barədə fikirlərini təhlil etmək.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt, hadisə və prosesləri öyrənmək, dərk etmək və dəyişdirmək məqsədilə tətdiq olunan prinsiplər, metodlar, vasitələr və nəzəri müddəaların məcmusu təşkil edir.

**Tədqiqatın metodları:** nəzəri, tarixi-müqayisəli təhlil, elmi-pedaqoji və arxiv materiallarının öyrənilməsi.

**Müdafiəyə çıxarılan müddəalar:**

-XX əsrin əvvəllərindəAzərbaycanda pedaqoji hərəkatın, inkişafını ictimai-siyasi, elmi-mədəni və pedaqoji mühit şərtləndirilmişdir.

-XX əsrin əvvəllərində Azərbaycanda maarifçiliyi və pedaqoji hərəkatın yeni istiqamətdə, yeni məzmun və mahiyyətdə inkişafına “Füyuzat” jurnalının və “füyuzatçı”ların mühüm təsir olmuşdur.

-“Türkçülüyün babası” adlandırılan Əli bəy Hüseynzadənin və “füyuzatçı”ların türk milli-etnik şüurunun oyanmasında, milli dövlətçilik ideologiyasının formalaşmasında və Azərbaycan Demokratik Cümhuriyyətinin yaranmasında müstəsna xidmətləri vardır.

-“Füyuzat”çılardünyəvi məktəbləri,yeni təlim metodlarını, milli məzmunlu dərslikləri, təhsilin demokratikləşdirilməsini, milli ruhlu müəllimləri milli dirçəliş və tərəqqinin ən mühüm amili hesab edirdilər.

-“Molla Nəsrəddin”çilərana dilinə, onun təliminə və maarif cəbhəsindəki yerinə, təbliğinə və tədrisinə “azərbaycançılıq” “füyuzat”çılar isə “turançılıq”, ümumtürk coğrafiyası mövqeyindən yanaşırdılar.

-Füyuzat”çıların “türk qanlı, islam etiqadlı, firəng qiyafəli” vətəndaşlar yetişdirmək konsepsiyasının əsasını əqli, əxlaqi, etik-estetik, mənəvi, əmək, fiziki, milli özünüdərk, vətənpərvərlik, istiqlal, insanpərvərlik, milli qürur, beynəlmiləlçilik və dini tərbiyə təşkil edir.

-“Füyuzat”çılar dini və dünyəvi elmlərin təliminə münasibətdə ən düzgün mövqe tutur, hər ikisini vacib hesab edirdilər.

**Tədqiqatın elmi yeniliyi.** XX əsrin əvvəllərində Azərbaycanda maarifçi-pedaqoji hərəkatın yüksəlişində, təhsil-tərbiyə prosesinin humanistləşdirilmsində və demokratikləşməsində, müasir məzmun kəsb etməsində, milli tərbiyə nəzəriyyəsinin inkişafında “Füyuzat” jurnalının və “füyuzat”çıların rolu müqayisəli şəkildə araşdırılır, onların mütərəqqi maarifçi fikrə təsiri üzə çıxarılır, yeni tipli məktəb, təhsilin məzmunu, təlim-tərbiyə vasitələri, ana dili və onun tədrisi, din, sosial mühit, milli özünüdərk, vətənpərvərlik, hürriyyət, mənəvi-əxlaqi, əqli, humanizm, beynəlmiləlçilik, əmək və fiziki tərbiyə ilə bağlı fikirləri sistemləşdirilir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Belə bir tədqiqat işi, hər şeydən əvvəl, xalqımızın tarixində milli intibah epoxası kimi səciyyələnən XIX-XX yüzilliklərin hüdudlarında baş verən maarifçi-pedaqoji hadisə və prosesləri, təlim-tərbiyə sahəsində görülən işləri, təhsilin demokratikləşməsi, müasirləşməsi uğrunda aparılan mübarizəni, onun miqyas və istiqamətlərini daha yaxşı dərk etməyə imkan verir. Həmin dövrün ictimai-mədəni və pedaqoji mühitini, tərbiyə nəzəriyyəsini, təhsil sferasını daha dərindən öyrənməyə, təhsil və pedaqoji fikir tariximizi yeni tədqiqat materialları ilə zənginləşdirməyə köməklik göstərir. Eyni zamanda “füyuzat”çıların maarifçilik sahəsində və pedaqoji istiqamətdə gördükləri işlərin yeni-yeni detal və cəhətlərini araşdırmaqdan ötrü perspektivlər açır.

**Tədqiqatın praktik əhəmiyyəti.**Tədqiqatın nəticələrindən “Azərbaycan pedaqoji fikrinin antologiyası”nın, “Azərbaycanda məktəb və pedaqoji fikir tarixi” dərsliyinin hazırlanmasında, ali məktəblərdə pedaqogikanın tarixi və nəzəriyyəsi fənləri üzrə mühazirə və seminar

məşğələlərində istifadə etmək olar. Dissertasiya maarif və mədəniyyət tariximizi zənginləşdirmək üçün də əhəmiyyətlidir.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertassiyanın əsas məzmunu ADPU-nun İbtidai təhsilin pedaqogikası kafedrasında, ADPU-da və Təhsil İnstitutunda keçirilən elmi seminarlarlarda müzakirə mişdir. Dissertasiya ilə bağlı 1 monoqrafiya, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi jurnallarda 11 məqalə, beynəlxalq və respublika konfranslarının materiallarında dərc olunmuş 3 tezis nəşr olunmuşdur.

**İddiaçının şəxsi töhfəsi.** XX əsrin əvvələrində Azərbaycanda pedaqoji fikrin inkişafında "Füyuzat" jurnalının oynadığı rolu üzə çıxarmaq, təhsil-tərbiyə nəzəriyyəsinin inkişafına fyüzatçıların təsirini ümumilşdirmək müəllifin şəxsi töhfəsi hesab oluna bilər.

**Dissertasiyanın quruluşu**. Dissertasiya giriş (16131 işarə), üç fəsil (367690 işarə), nəticə (10631 işarə) və istifadə edilmiş ədəbiyyat (25469 işarə) siyahısından ibarətdir.

Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**"Giriş"**də tədqiqatın aktuallığı əsaslandırılır, məqsədi, vəzifələri, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə təqdim olunan müddəalar verilir.

Dissertasiyanın birinci fəsli ***"Füyuzat" jurnalı və onun Azərbaycan ictimai-mədəni və pedaqoji mühitin demokratikləşdirilməsində rolu***" adlanır. *"Əli bəy Hüseynzadənin həyatı və maarifçilik fəaliyyəti"*nə həsr edilən ilk yarımfəsildə Əli bəy Hüseynzadənin həyatı və yaradıcılığı haqqında geniş məlumat verilir. Əli bəy Hüseynzadə24 fevral 1864-cü ildə Salyan şəhərində anadan olub. Axund Əhmədin Qafqaz canişininə şəxsi müraciəti ilə 1875-ci ildə Əli bəy Tiflisdə 1-ci klassik gimnaziyaya qəbul olunub, dövlət hesabına təhsil alıb.Gimnaziyanın yataqxanasında yaşayıb və gündəlik yeməklə təmin olunub.1885-1889-cu illərdə Peterburq Universitetinin fizika-riyaziyyat fakültəsində təhsil alıb. 1889-1895-ci illərdə

İstanbulda Hərbi Tibb Məktəbində təhsil alib.1895-1897-ci illərdə Heydərpaşa hərbi xəstəxanasında dəri həkimi işləyir. 1897-1900-cü illərdə türk-yunan müharibəsi zamanı həkim kimi cəbhəyə cəlb olunur. 1900-cü ildə cəbhədən geri qayıdıb imtahan vermək yolu ilə Hərbi Tibb məktəbinə dosent (professor köməkçisi) vəzifəsinə qəbul olunur.1901-1902-ci illərdə o, professor, həkim K.Berksoy ilə birlikdə "Ensiklopedik tibb lüğəti", M.Rəfi bəylə birlikdə "Vəba və mikrobu" adlı kitabını yazır.

1903-cü ildə Qafqaza gəlmək fikrinə düşür və elə həmin il Bakıya gəlir. Ə.Hüseynzadənin həyatının Bakı (Qafqaz) dövrü (1903-1910) son dərəcə mürəkkəb, lakin qaynar, səmərəli və məhsuldar olmuşdur. 1905-ci ildə iyun ayının 7-də Bakıda Azərbaycan dilində "Həyat" qəzeti nəşrə başlayır. Qəzetin naşiri və redaktorları Ə.Hüseynzadə və Ə.Ağayev idi. 1906-cı ildə iyun ayının ortalarından etibarən Əli bəy bir müddət rus dilində nəşr olunan "Kaspi" qəzetinin redaktorluğu vəzifəsini də öz üzərinə götürməli olur. 1906-1907-ci illərdə Ə.Hüseynzadə "Füyuzat" jurnalını nəşr etdirir. Jurnalıntəsisçisi messenant H.Z.Tağıyev idi. Bakıda geniş maarifçilik fəaliyyəti göstərən Ə.Hüseynzadə Müsəlman (Azərbaycan) müəllimlərinin I Qurultayında "Ədəbiyyata dair" mövzusunda məruzə ilə çıxış etmişdir. 1908-1910-cu illərdə Əli bəy "Səadət" xeyriyyə cəmiyyətinin Bakıda təsis etdiyi məktəbdə müəllim, hətta bir müddət müdir olmuşdur. 1910-cu ildə Ə.Hüseynzadə yenidən İstanbula qayıdır. 1926-cı ilə qədər Heydərpaşa hərbi xəstəxanasının tibb fakültəsində müəllim kimi fəaliyyət göstərir. Əli bəy 1912-ci ildə 48 yaşında ailə qurmuşdur.

1926-cı ilin fevral-mart (26 fevral-6 mart) aylarında Bakıda I Türkoloji qurultay keçirilir. Qurultayda o dövrün bir sıra məşhur və nüfuzlu türkoloqları iştirak edirdilər. Bu möhtəşəm elmi-ictimai tədbirə Türkiyədən cəmi üç nəfər dəvət almışdı: Ə.Hüseynzadə, F.Köprülü və Y.Messaroş. Qurultayda Ə.Hüseynzadə 6 nəfərdən ibarət fəxri rəyasət heyətinə seçilmişdi. 1933-cü ildə Heydərpaşa ərbi xəstəxanasının professor vəzifəsindən istefaya çıxan Ə.Hüseynzadə 17 mart 1940-cı ildə İstanbulda dünyasını dəyişmişdir. "Türkçülüyün babası" adlandırılan bu böyük insan bütün mənalı ömrünü türk xalqlarının, o

cümlədən, mənsub olduğu Azərbaycan türklərinin milli intibahına, dirçəlişinə, onların hürriyyət və istiqlaliyyət əldə etməsi uğrunda təbliğat, təşviqat və mübarizəyə həsr etmişdir. Türk milli-etnik şüurunun oyanmasında, ADC-nin yaranmasında bir ideoloq, bənzərsiz fikir və əməl adamı kimi onun müstəsna xidmətləri vardır.

Fəslin ***"Azərbaycanda təhsil-tərbiyə prosesinin və pedaqoji fikrin demokratikləşməsində "Füyuzat" jurnalının rolu"*** adlı ikinci yarımfəsildə əsaslandırılır ki, "Füyuzat" jurnalı yeni dövr Azərbaycan tarixinin ən mühüm ədəbi-mədəni, maarifçi-pedaqoji, sosial və ideoloji hadisələrindən biridir. Xalqımızın dövlətçilik həyatında, tarixi taleyinin həllində, ictimai, siyasi, ədəbi, mədəni, pedaqoji, maarifçilik düşüncələrinin müsbət istiqamətdə formalaşmasında "Füyuzat"jurnalının son dərəcə böyük əhəmiyyəti vardır. Həmin məfkurə, ideya və mətləblər yeni dövrdə dövlətin və xalqın öz inkişaf istiqamətini düzgün müəyyənləşdirməsi yolunda bir milli-ideoloji kompas rolunu oynayır."Füyuzat" zamanın tələbi ilə yaranmış bir fikir, söz abidəsidir. Görkəmli alim Ə.Mirəhmədov haqlı olaraq qeyd edir ki: "XX əsr ədəbiyyatımızı nəinki "Molla Nəsrəddin"siz, habelə "Füyuzat"sız təsəvvür etmək çətindir"[1]. Əslində isə nəinki XX əsr ədəbiyyatımızı, heç ictimai, siyasi, hüquqi, fəlsəfi, maarifçi və pedaqoji, nəhayət, milli dövlətçilik və ideoloji düşüncə tərzimizi də bu iki jurnalsız təsəvvür etmək nəinki "çətindir", heç mümkün deyil. Təbii ki, "Füyuzat" isə Əli bəy Hüseynzadənin şah əsəridir.

"Füyuzat" məcmuəsi həm xalqımızın tarixi-mədəni irsi xəzinəsində, həm də Ə.Hüseynzadənin fəaliyyətində və yaradıcılığında şah əsərlərdən sayılır. O, xalqı oyatmaqda, onu gələcək mübarizəyə hazırlamaqda öz üzərinə geniş miqyaslı, çoxşaxəli bir missiya götürmüşdü. Jurnal ətrafında elitar və vətənpərvər bir ziyalı dəstəsi toplaya bildi. Ə.Hüseynzadə başda olmaqla H.Zərdabi, M.Hadi, M.Ə.Sabir, A.Səhhət, H.Cavid, M.Ə.Rəsulzadə, A.Sur, A.Şaiq, Ə.Kamal, A.Y.Talıbzadə, A.Cövdət, R.M.Əkrəm, Nigar xanım, H.S.Ayvazov, X.Z.Uşşaqizadə, İ.T.Musayev, S.Səlmasi, M.H.Qüdsi və s. həmin ziyalılar cərgəsində idilər. Həm də onun yayılma və təsir

---

[1] Şaiqanə yad et! Bakı:Yazıçı, 1981, s.139

coğrafiyası Azərbaycan hüdudlarından kənara çıxdı. Başqa türkdilli xalqlar arasında da nüfuz qazandı.

"Füyuzat"çıların xalqı geniş mənada tərbiyə missiyası, təlqinləri, milli oyanışa və intibaha xidmət stixiyası vətən övladında özünə inam yaratmaq ideyasından başlayırdı. Milli tərəqqi, xoşbəxt istiqbal, azadlıq və istiqlal uğrunda mücadilədə "füyuzat"çıların əsas amalı idi. Onların milli intibah və tərəqqi proqramının əsas istiqamətini maarifə və elmə yiyələnmək təşkil edirdi. Həm də bu maarif və elmin Avropa tipində olması vacib şərt kimi irəli sürülürdü. Xalqın diriliyi, hərtərəfli inkişafı, hakim mövqeyə çıxması üçün hər bir sahədə (elmdə, iqtisadiyyatda, sənayedə, təsərrüfatda, ticarətdə, pedaqoji mühitdə, mədəniyyətdə) lazımlı mütəxəssislər yetişdirmək tövsiyəsi "füyuzat"çıların nəzəri təbliğatında əsas yerlərdən birini təşkil edirdi. Onlar mətbuatı ən mühüm tərbiyə və təbliğat tribunalarından biri hesab edir, bədii əsərlərin təsir gücündən maksimum dərəcədə istifadə etməyə çalışırdılar.

"Füyuzat" qısa bir vaxtda Azərbaycan ictimai, siyasi ədəbi, mədəni və pedaqoji mühitində dərin iz qoydu, əsaslı bir məktəb yaratdı. "Türkləşmək, islamlaşmaq, müasirləşmək" istiqamətində təbliğat və təşviqat işləri genişləndi.

Dissertasiyanın ikinci fəsli ***"Füyuzat" jurnalında təhsilməsələləri"*** adlanır. *Fəslin "Füyuzat"çıların yeni məktəb və böyüyən nəslin təhsili ilə bağlı fikirləri"* adlı ilk yarımfəslində əsaslandırılır ki, "füyuzat"çıların fəaliyyət və hərəkət proqramında böyüyən nəslin təhsili məsələləri əsas yer tuturdu. Onlar təhsili milli dirçəliş və tərəqqinin ən mühüm amili hesab edirdilər. Həm də problemə bir bütöv halında, yəni onun bütün atribut və parametrlərini nəzərə almaqla yanaşırdılar. "Təlim necə aparılmalıdır?" - sualına cavab verməzdən əvvəl "təlim üçün nələr lazımdır?" - sualına çavab axtaran "füyuzat"çıların gəldikləri nəticələr təhsilin demokratikləşdirilməsinə xidmət edirdi:müasir ruhlu məktəb, yeni dövrün ab-havasını anlayan bilikli, savadlı müəllim, yeni və sağlam məzmunlu dərslik və tədris-metodiki kitablar, müasir məzmun və məndəricəli mütaliə mənbələri, oxu materialları və pedaqoji mətbuat. Bu, XX əsrin əvvəllərində bütün maarifçiləri düşündürən əsas pedaqoji problemlər

idi. “Füyuzat”çılar yeni məktəbləri (üsuli-cədid) maarif hərəkatının ilk müqəddəs məbədi sayırdılar. Məhəmməd Hadi Əbdüssəlimzadə – “Almaniyada darülməlulin” (1906, №3), “Dövri-mədəniyyət” (1907, №13), “Amerikada üsuli-təlim və tərbiyə” (1907, №25); Həsən Səbri Ayvazov – “Təlimi-ətfal məsələsi” (1907, №13); “Çində asari-tərəqqi” (1907, №13); Qari ibn Tacəddin – “Ümid” (1907, №15); Əhməd Kamal – “Bolqarıstan” (1907, №19), “İsbati-iştibah” (1907, №23) adlı məqalələrdə “füyuzat”çılar “müasir həyat müasir məktəbdən başlayır” - ideyasını təbliğ edir, məktəb, müəllim və onun şəxsiyyəti, tədrisin təşkili məsələlərinə geniş yer verirdilər.

“Füyuzat” əməkdaşları müasir məktəb və təlim ideyasının reallaşması yolunda mübarizədə, əsasən, Avropa ölkələrinin, habelə Amerika və Yaponiya kimi qabaqcıl dövlətlərin təcrübəsinə, təhsil sistemlərinin uğurlarına istinad edirlər. “Füyuzat”çılara görə yeni tipli məktəbin ən vacib subyekti müəllimdir. Əlverişli ictimai-pedaqoji mühit, yaxşı sinif otağı, yaxşı proqram, dərslik və tədris ləvazimatları ola bilər. Ancaq yaxşı müəllim yoxdursa, bunlar faydasızdır. Heç bir səmərəli nəticəyə gətirib çıxara bilməz. Elə buna görə də məcmuənin əməkdaşları müasir məktəb və təlim ideyasını ortalığa atarkən onunla paralel “müasir müəllim” ideyasına da diqqət yetirirdilər.

“Füyuzat”çılar yeni tipli dərslik, tədris və metodiki vəsaitləri yeni tipli məktəbin vacib komponentlərindən sayırdılar. Onlar başa düşürdülər ki, sağlam məzmuna, müasir pedaqoji tələblərə malik dərslik çağdaş maarif və təhsil mühitinin vacib atributlarındandır. Onlar qabaqcıl, millətpərvər və səriştəli müəllimləri, habelə mütərəqqi pedaqoji ictimaiyyəti bu istiqamətdə lazımi işlər görməyə sövq edirdilər. Onlar Avropa tipli təhsil ocaqlarının yaradılması, milli məktəblərin təsisi və intişarı uğrunda mübarizə aparırlar. Həmin məktəblərdə müasir elmlərə, pedaqoji biliklərə yiyələnmiş savadlı, vətənpərvər, millətsevər, öz peşəsinə fədakarlıqla yanaşan müəllimlər görmək istəyirlər. Məktəblərdə təlimin çağdaş prinsiplər əsasında aparılmasını zəruri şərt kimi ortalığa qoyurlar. Tədris olunan təlim və metodik materialların sağlam ruhlu, müasir məzmunlu olmasını təhsilin vacib atributu kimi təbliğ edir, mütərəqqi məfkurəli ziyalıları bu istiqamətdə səy göstərməyə təşviq edirlər. Şagirdləri

yeni mədəni-pedaqoji mühitin tələb etdiyi məzmunda sinifdənxaric oxu materialları, qiraət kitabları, müxtəlif səpkili elm və bədii əsərlərlə təchiz etməyi günün aktual problemlərindən hesab edirlər. Milli məfkurəli ziyalıları bu yolda səfərbərliyə səsləyirlər.

Dissertasiyanın ikinci yarımfəsli *"Füyuzat"çılar ana dili və onun tədrisi haqqında"*adlanır. XX əsrin əvvəllərində ana dilinin tədrisi əsas pedaqoji problemlərdən biri idi.

"Füyuzat"çılar ana dilinin tədrisinə, ana dilində məktəblərin açılmasına nə qədər ciddi yanaşsalar da, bu məsələdə hər addımda şovinist çar siyasətçilərinin müqaviməti ilə üzləşirdilər. "Füyuzat"çıları ana dilinə, onun təliminə və maarif cəbhəsindəki yerinə, təbliğinə və tədrisinə münasibətdə "turançılıq", ümumtürk coğrafiyası mövqeyindən yanaşırdılar. Digər mütərəqqi baxışlı maarifpərvərlərimiz ("Molla Nəsrəddin"çilər) bu məsələyə "azərbaycançılıq" kontekstində baxırdılar. Amma hər iki cəbhənin son qayəsi, ideal və hədəfi vətənin azadlığı, millətin maariflənməsi, hürriyyət və istiqlala qovuşması idi.

"Füyuzat"çıları narahat edən məsələlərdən biri də dilimizdə dilə aid qanun-qaydaların dolaşıq, nizamsız, pozğun halda olması idi. Onlar türk dillərində, o cümlədən Azərbaycan türkcəsində imla (orfoqrafiya), qrammatik və üslubi qanun-qaydaların sabitləşməməsinin istər təlimdə, istərsə də ədəbi-elmi əsərlərin yazılışında əsaslı çətinliklər, əngəllər yaratdığını görür, bir sıra "sərf-nəhv" (fonetik, qrammatik) qaydalarını oxuculara başa salan yazılar çap edirdilər.

Fəslin *"Füyuzat" jurnalı və Azərbaycan müəllimlərinin II qurultayı*" adı üçüncü paraqrafında müsəlman müəllimlərinin I və II qurultaylarının Azərbaycanda təhsil və pedaqoji fikrin inkişafında yeri və rolu müəyyənləşdirilir. Qurultaylarda həllinə təşəbbüs göstərilən pedaqoji problemlər diqqətə çatdırılır.Azərbaycan müəllimlərinin II qurultayının gedişatını, müzakirə olunan problemləri öyrənmək baxımından "Füyuzat" jurnalı dəyərli mənbədir. Nəzərə alsaq ki, indiyə kimi həmin qurultayın stenoqramması çap edilməyib, onda jurnalda verilən yazıların əhəmiyyəti daha aydın olar

Beləliklə, "füyuzat"çılar mövcud ictimai, siyasi, ədəbi, mədəni hadisələrə fəal münasibət bildirdikləri kimi ətraf mühitdə baş verən maarif məsələlərinə, pedaqoji prosesə də diqqət göstərmişlər. II

Azərbaycan müəllimləri qurultayının bütün gedişatının jurnalın səhifələrində təfsilatlı şəkildə şərhi bunun aydın sübutudur.

Dissertasiyanın üçüncü fəsli ***"Füyuzat" jurnalında tərbiyə məsələləri"*** adlanır. Fəslin *"Füyuzat"çılar ailə tərbiyəsi və tərbiyədə sosial mühitin rolu barədə"* adlı ilk yarımfəslində"füyuzat"çıların ailə tərbiyəsi ilə bağlı fikirləri təhlil və tədqi olunur. Onlar azərbaycanlı ailəsini sağlam, müasir dünyagörüşə yiyələnmiş, mənəvi-əxlaqi və insani keyfiyyətləri ilə nümunəvi bir səciyyədə görmək istəyirdilər. Layiqli övladların və vətəndaşların da yalnız belə ailələrdə yetişə biləcəyini israr edirdilər. Bu mənada "füyuzat"çılar da demokratik ruhlu Azərbaycan maarifçilərinin mövqeyini müdafiə edir, onların səsinə səs verirdilər."Füyuzat"ın səhifələrində Həsən Səbri Ayvazovun "Həyati-ailə və ailəçilərimiz"[1], İsmayıl Həqqinin "Validə qucağı, ya ki ilk tərbiyə"[2]ailə tərbiyəsinə həsr edilmiş sanballı məqalələri dərc olunmuşdur.

"Füyuzat"çıların fikrincə, müsəlman ailələrində tərbiyə mühiti tamamilə təzələnməli, yeni mütərəqqi əsaslar üzərində qurulmalıdır. Əks təqdirdə nə vətənə və xalqa, nə də ailənin özünə fayda verə biləcək vətəndaşlar yetişdirmək mümkün deyil. Müəllif ataları bu yola səsləyir.

"Füyuzat"çılar tərbiyədə sosial mühitin roluna da diqqət yetirirdilər. Onlar kütləni də başa salmağa çalışırdılar ki, vətəndaşların sağlam tərbiyəsi üçün sağlam ictimai mühitin yaradılmasına ehtiyac vardır. Tərbiyə və ictimai mühit məsələsindən danışarkən "füyuzat"çılar daha çox Qərblə Şərqi müqayisə edirdilər. Qərb ölkələrində sosial gerçəkliyin normal tərbiyə üçün daha yararlı, əlverişli olduğunu nəzərə çatdırırdılar. Bunun əsas səbəbini isə məktəb, maarif və elmdə görürdülər. Ona görə də cəmiyyəti bir bütöv halında müsbət istiqamətdə tərbiyələndirmək üçün maarifi və məktəbi əsas vasitə hesab edirdilər.

---

[1] "Füyuzat" jur., (1906-1907). Tam mətni. (ərəb əlifbasından latın əlifbasına çevirəni, çapa hazırlayanı və ön sözün müəllifi: Bayramlı O.) Təkrarnəşr – Bakı: Çaşıoğlu, 2007, s.155

[2] Yenə orada, s.272

Fəslin *"Füyuzat"çılar qadın tərbiyəsi haqqında"* adlı ikinci paraqrafında "füyuzat"çıların qadın təhsil və tərbiyəsi ilə bağlı fikirləri təhlil və tədqiq olunur. M.Şahtaxtlının islam aləmində qadınların acınacaqlı vəziyyətini iəsvir edən məqaləsi təhlil olunur[1].

Ə.Hüseynzadənin "Siyasəti-fürusət" risaləsində qadın tərbiyəsi məsələsinə də geniş yer verir. İran qadınlarının timsalında islam dünyasında xanımların düçar olduqları çoxəsrlik rəzalət və hüquqsuzluğun cəmiyyətdə hansı faciələrə gətirib çıxardığını izah edir[2]. Qadınlar üçün təhsil ocaqları açmağa çağıran Ə.Hüseynzadə islam aləminin yüksəlişi üçün bunu son dərəcə ümdə və vacib şərt sayır. "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar" adlı məqaləsində Əli bəy qadın və onun cəmiyyətdə rolu məsələsinə də toxunur[3]. İnqilabi "qırmızı", irticanı isə "qaranlığa" bənzədən ideoloq indiki dövrdə bunların arasında kəskin mübarizə getdiyini göstərir. Cəmiyyətdəki müsbət amallı ziyalıları, fikir adamlarını, milli münəvvərləri isə "yaşıl işıqlar" adlandırır. "Füyuzat"da Həsən Səbri Ayvazovun "Qadınlıq və qadınların əhəmiyyəti" (1907, №25), "Əsarət qurbanları" (1907, №17), "Nədən bu hala qaldıq?" (1907, №15), Ə.Kamalın "İsbati-iştibah" ("Səhvin sübutu"), M.Hadinin "Hissiyyati-madəranə və yaxud övlad bəsləmək hissləri" (1906, №4), Azadın "Xanımlara" (1907, №24), Əbdülhəq Mehrənnisə xanımın "Bir qız ki tanırdım" (1907, №25) adlı əsərləri verilmişdir.

Fəslin *"Füyuzat"çılar dini tərbiyə haqqında"* adlı üçüncü paraqrafında əsaslandırılır ki,"füyuzat"çılar yeni baxışlara, sağlam təmələ, həqiqi etiqad sisteminə söykənən dini tərbiyənin tərəfdarları olmuşlar. Ə.Hüseynzadənin milli özünütəsdiq, intibah, tərəqqi və yaşayış proqramı triada düsturu üzərində qurulmuşdur. "Türkləşmək, islamlaşmaq, müasirləşmək" həmin triadanın üç əsas dayağını təşkil edir. "Füyuzat"çılarınəsas məqsədi "türk qanlı, islam etiqadlı, firəng qiyafəli" vətəndaşlar tərbiyə etmək idi. Onların təbliğat və tərbiyə

---

[1] Şahtaxtlı M. Seçilmiş əsərləri. Bakı: Çaşıoğlu, 2006, s.47
[2] Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2007, s.357
[3] "Füyuzat" jur., (1906-1907). Tam mətni. (ərəb əlifbasından latın əlifbasına çevirəni, çapa hazırlayanı və ön sözün müəllifi: Bayramlı O.) Təkrarnəşr – Bakı: Çaşıoğlu, 2007, s.70

amalının mühüm bir xətti "islamlaşmaq" qayəsi üzərində qurulmuşdu. "Füyuzat"çıların dini tərbiyə konsepsiyası aydın və şəffaf məntiqə söykənirdi.Ona görə də "füyuzat"çıların dini tərbiyə nəzəriyyəsi bitkin və mütərəqqi bir konsepsiya təsiri bağışlayırdı.

Milli intibah dövrü Azərbaycan maarifpərvərlərini düşündürən, narahat edən problemlərdən biri də "elmi-əbdan" (dünyəvi elmlər) və "elmi-ədyan" (dini elmlər) məsələsi idi. "Füyuzat"çılar dini və dünyəvi elmlərin təliminə münasibətdə Ə.Hüseynzadənin mövqeyindən çıxış edirdilər. Ə.Hüseynzadə deyirdi ki, bizə dini elmlər nə qədər gərəkdirsə, dünyəvi elmlər də o qədər lazımlıdır.

Deməli, dini tərbiyə "füyuzat"çıların milli oyanış və inkişaf proqramında əsas xətlərdən birini təşkil edirdi. Daha doğrusu, dini tərbiyə Ə.Hüseynzadə tərəfindən bir milli-ideoloji şüar kimi müəyyən edilən "türkləşmək, islamlaşmaq, müasirləşmək" amalının tərkib hissəsi idi.

Fəslin *"Füyuzat"çılar milli özünüdərk, vətənpərvərlik və hürriyyət tərbiyəsi haqqında"*adlı dördüncü paraqrafında əsaslandırılır ki,XX əsrin əvvəllərində "füyuzat"çılar xalqımızın öz milli varlığını dərk etməsində, etnik yaddaşın bərpasında, xalqı yalnız xarakter, səciyyə baxımından deyil, həm də milli kimlik nöqteyi-nəzərindən özünə tanıtmaqda əvəzsiz xidmətlər göstərdilər. "Füyuzat"çılar Ə.Hüseynzadə başda olmaqla milli özünüdərk tərbiyəsini "türkçülük", "turançılıq" kontekstində aparırdılar.

Azərbaycan ictimai-siyasi və mədəni-maarif mühitində türkçülüyə və milli özünüdərk probleminə həsr olunmuş ilk fundamental əsər Ə.Hüseynzadənin "Türklər kimdir və kimlərdən ibarətdir?" əsəridir.

Milli yaddaşın bərpasında "füyuzat"çıların əsas niyyətlərindən biri də xalqda milli qürur, özünə inam duyğusu yaratmaq idi. Bunun üçün onlar türk qövmlərinin tarixi keçmişindən şanlı-şərəfli hadisələri, qələbələri, yaratdıqları imperiyaları, qüdrətli dövlətləri, böyük şəxsiyyətləri, bəşəriyyətə verdikləri töhfələri xatırladır, onların istedad və qabiliyyət sahibi olduqlarını nəzərə çatdırırdılar. Başqa sözlə, "füyuzat"çılar milli özünüdərk tərbiyəsi ilə milli qürur duyğusunun bərpasını uzlaşdırmağa təşəbbüs göstərirdilər. Onlar başa düşürdülər ki, xalqda milli qürur hissi yaratmadan onu milli azadlıq, hürriyyət

və istiqlaliyyət uğrunda mübarizəyə sövq etmək mümkün deyil.Ona görə də "Füyuzat"ın səhifələrində türk xalqlarının tarixinə, mədəniyyətinə, nüfuzlu şəxsiyyətlərinə, istedad və bacarığının başqa xalqlardan az olmadığına dair yazılara tez-tez yer verilirdi.

"Füyuzat"çıların milli özünüdərk, milli təəssübkeşlik məramı onların vətənpərvərlik, vətənə və doğma yurda məhəbbət ideyası ilə vəhdət təşkil edir. Ona görə də milli arenada vətənpərvərlik tərbiyəsi istiqamətində ciddi təşviqat aparırdılar. Onların milliyyət amalı, millət düşüncə və sevgisi, vətənə məhəbbət məfkurəsi hürriyyət idealı ilə qovuşub tamamlanaraq bütöv bir tərbiyə konsepsiyası halına gəlir. Milli arenada hürriyyət idealının yayılmasında, kütləni milli istiqlal və hürriyyət ideyaları uğrunda mübarizəyə səfərbər etməkdə "füyuzat"çıların mühüm xidmətləri olmuşdur.

Fəslin ***"Mənəvi-əxlaqi, əqli, humanizm və beynəlmiləlçilik tərbiyəsi haqqında"*** adlı beşinci paraqrafında "füyuzat"çılar mənəvi-əxlaqi, əqli, humanizm və beynəlmiləlçilik tərbiyəsi haqqında fikirləri təhlil və tədqiq olunur. "Füyuzat"çıların tərbiyə kodeksinə daxil etdikləri əsas maddələrdən biri də humanizm tərbiyəsidir. Əgər onların humanizm tərbiyəsinin nəzəri əsaslarını yığcam bir düsturla ifadə etsək, belə bir qənaət hasil edə bilərik: İnsan hər bir bəşər övladını və Allahın yaratdığı hər bir məxluqu sevməyə borcludur.Bəşəriyyətin xilası və nicatı nədədir? "Füyuzat"çılar bütün dövrlər üçün düşündürücü və aktual olan bu suala belə cavab verirdilər: Nicat məhəbbətdədir!..

"Füyuzat" jurnalında insanpərvərlik mövzusuna diqqət yetirən, bu mövzuda tərbiyəvi ruhlu əsərləri ilə çıxış edən əməkdaşlardan biri də M.Hadi idi. Onun "Səadət nədir?" (1907, №24) məqaləsi, "Heyrət, yaxud bir mələgin insanlara xitabı" (1906, №1), "Kitabi-həyat" (1906, №3), "Dəli şairə" (1906, №6), "Fəzaili-insaniyyə" (1907, №9) və s. şeirləri insanpərvərlik mövzusuna həsr olunmuşdur.

"Füyuzat"çıların humanizm prinsipləri beynəlmiləlçilik missiyası ilə vəhdət təşkil edir. "Füyuzat"ın məfkurəsində dinindən, irqindən, cinsindən, milliyyətindən asılı olmayaraq bəşər övladı olan hər kəsə ehtiram və qayğı ifadə olunurdu. Beynəlmiləlçilik tərbiyəsində "füyuzat"çılar bütün millətlərin azadlıq və bərabərlik, haqq və

hüquq təəssübkeşləri kimi çıxış edirdilər. Onların bu ideya və tərbiyə estafetini sonrakı dövrün milli ziyalı və ideya rəhbərləri layiqincə davam etdirdilər.

Fəslin *"Füyuzat"çılar əmək və fiziki tərbiyə haqqında"* adlı son paraqrafında əsaslandırılır ki, "füyuzat"çıların milli tərbiyə proqramına daxil olan müddəalar çoxistiqamətl və çoxşaxəli idi. Onlar böyüyən nəslin əmək və fiziki tərbiyəsi ilə bağlı bitkin elmi konsepsiyaya malik idilər."Sağlam bədəndə sağlam ruh olar"-müddəası onların təbliğ etdiyi fiziki tərbiyə ideyasının əsasını təşkil edirdi. Onlar sağlam və ləyaqətli nəsil tərbiyəsində əmək və fiziki tərbiyənin rolunu yüksək dəyərləndirirdilər.Sağlam fərdlər, sağlam cəmiyyət deməkdir. Cəmiyyətin firavanlığı, tərəqqisi, rifahı, səadəti isə, təbii ki, sağlam cəmiyyət üzvlərindən asılıdır.

Deyilənləri yekunlaşdıraraq aşağıdakı ***nəticəyə*** gəlmək mümkündür:

1.XX yüzilliyin əvvəlləri Azərbaycan xalqının tarixi inkişafında milli intibah epoxası kimi səciyyələnir. Bu dövr zəngin, maraqlı, mürəkkəb ictimai-siyasi, tarixi, iqtisadi, ədəbi-mədəni, maarifçi və pedaqoji hadisələri ilə diqqəti cəlb edir. Milli-mədəni həyatda əlamətdar yeniliklər nəzərə çarpır. Milli düşüncə, milli məfkurə, milli qurtuluş idealı cücərib boy atır və dolğun ideoloji səviyyəyə gəlib çatır. Demokratik baxışlı, vətənin və xalqın taleyini düşünən mübariz, fədakar bir ziyalı nəsli yetişir. Onlar milli intibah və inkişafa məqsədəuyğun istiqamət verirlər.

2.XIX yüzilliyin 70-80-ci illərindən start götürən "üsuli-cədid" hərəkatı, məktəb və maarif həyatında baş verən yeniliklər XX yüzilliyin əvvəllərində daha da şaxələnir, mütərəqqi hadisələrlə zənginləşir, daha tutumlu mahiyyət kəsb edir, milli tərəqqi yolunda əsaslı faktora çevrilir.

3.XX yüzilliyin əvvəllərində ədəbi-mədəni, ictimai-pedaqoji həyatda və maarifçilik hərəkatında üç mühüm təmayül özünü büruzə verir: 1."Füyuzat"çılar; 2. "Molla Nəsrəddin"çilər; 3. Bu iki təmayüldən kənarda fəaliyyət göstərən maarifçilər. Ayrı-ayrı fəaliyyət taktikasına malik olsalar da, hər üç təmayülün son məqsədi, strateji hədəfi eyni idi: xalqın hərtərəfli mənada oyanmasını və inkişafını təmin etmək, təhsil, maarif və tərbiyə yolu ilə kütləni milli mübarizəyə,

azadlıq və istiqlaliyyətə hazırlamaq. Xalqı və vətəni hürriyyət vəistiqlaliyyət uğrunda mübarizəyə səfərbər edib gələcəkdə həmin idealları real gerçəkliyə çevirmək.

4.XX əsrin əvvəllərində xalqımızın milli mənəvi, mədəni dirçəlişində, ictimai-siyasi oyanışında, məktəb və maarif həyatının demokratikləşməsində, vətəndaşların yeni ruhda tərbiyəsində "füyuzat"çılar əvəzsiz rol oynadılar.

5."Füyuzat" jurnalının baş mühərriri və əsas ideoloqu böyük mütəfəkkir Əli bəy Hüseynzadə idi. Jurnalın ideoloji və məfkurəvi istiqaməti onun ideyaları əsasında formalaşdı. "Füyuzat"çılar bu ideyalar ətrafında birləşib fəaliyyət göstərdilər.

6.Əli bəy Hüseynzadə zəngin, məhsuldar, xalqı və vətəni, həmçinin bütün türk dünyası üçün faydalı olan bir ömür yaşamışdır. Onun həyat yolu, fəaliyyəti, gördüyü əzəmətli işlər indiki və gələcək nəsildən ötrü nümunəvi bir örnək təşkil edir. O, rəssam, jurnalist, siyasətçi, ideoloq, şair, ictimai xadim və s. kimi tanınan Əli bəy Hüseynzadə həm də böyük maarifçi, müəllim, pedaqoji xadimdir.

8."Füyuzat" (1906-1907) jurnalı xalqımızın ictimai-siyasi, ədəbi-mədəni, pedaqoji həyatında və maarifçilik hərəkatının yüksəlişində, ictimai-pedaqoji mühitin demokratikləşməsində, mütərəqqi təlim-tərbiyə ideyalarının intişarında son dərəcə əhəmiyyətli rol oynadı. Bütöv bir ziyalı nəslinin yetişməsində, xalqımızın azadlıq, müstəqillik, istiqlaliyyət ideallarına yiyələnməsində əvəzsiz iş gördü.

9."Füyuzat"çılar milli coğrafiyada böyüməkdə olan nəslin müasir məzmunlu elm, maarif və təhsilə yiyələnməsini milli tərəqqi yolunda ilk və ən zəruri problem hesab edir, bu ideyanın gerçəkləşməsi naminə fədakarlıqla mübarizə aparır, təlim müəssisələrinin müasir məzmunlu dərslik, dərs vəsaiti, tədris-metodiki materiallar, oxu kitabları ilə təchiz olunmasına səy göstərirdilər. Milli məktəbləri milli tərəqqinin mühüm vasitəsi hesab edirdilər.

10."Füyuzat"çılar milli ədəbi-mədəni və pedaqoji həyatda ana dilinin intişarına, onun məktəblərdə tədrisinə xüsusi əhəmiyyət verirdilər. Milli məkanda rus dilində fəaliyyət göstərən məktəblərdə ana dilinə qayğı və diqqətlə yanaşmağı tələb edir, eyni zamanda milli di-

ldə yeni-yeni tədris ocaqlarının açılması yolunda canfəşanlıqla təbliğat aparır, onun zərurətini kütləyə başa salırdılar.

11.“Füyuzat”çılar milli tərəqqidə bədii ədəbiyyat, milli mətbuat, milli teatr və s. kimi tərbiyə vasitələrinin rolunu geniş ictimaiyyətə anlatmağa səy göstərirdilər.

12.1907-ci ilin yayında Bakıda keçirilən II Azərbaycan (müsəlman) müəllimləri qurultayına dəstək verən mətbuat orqanlarından biri “Füyuzat” jurnalı idi. O, zaman nəşr olunan yeganə mətbuat orqanıdır ki, qurultayın bütün gedişatına dair silsilə yazılar vermiş, qurultayın ilk günündən sonuna qədər bütün iclaslarının gedişatı jurnalın səhifələrində işıqlandırılmışdı.

13.“Füyuzat”çılar böyüməkdə olan nəslin və vətəndaşların geniş mənada tərbiyəsinə xüsusi önəm verirdilər. Çoxşaxəli tərbiyə kodeksi onların milli tərəqqi proqramında zəruri istiqamət təşkil edirdi.

14.Onlar tərbiyədə məktəblə yanaşı ailənin və sosial mühitin roluna da xüsusi diqqət yetirir, layiqli vətəndaş yetişdirməkdən ötrü valideynlərin və cəmiyyətin üzərinə ciddi məsuliyyət düşdüyünü geniş ictimaiyyətə başa salırdılar. Cəmiyyəti və valideynləri bu vacib məsələ ilə bağlı maarifləndirməyə səy göstərirdilər.

15.“Füyuzat”çılar qadınların, anaların təhsil və tərbiyəsini milli tərəqqidə, cəmiyyətin yüksəlişində vacib şərt hesab edirdilər. Qadınların savadsız, hüquqsuz, maarifsiz, kölə vəziyyətə düşdüyü, təhsil və tərbiyədən kənarda qaldığı müsəlman şərqində bunu günün təxirəsalınmaz vəzifəsi hesab edirdilər.

16.“Füyuzat”çıların tərbiyə kodeksinə dini tərbiyə də daxil idi. Onlar islam etiqadlı vətəndaşlar yetişdirməyi vacib sayırdılar. Əli bəyin təbirincə “füyuzat”çıların məqsədi türk qanlı, islam etiqadlı, firəng qiyafəli vətəndaşlar yetişdirmək idi. Lakin onlar məktəblərdə dini elmlərlə yanaşı dünyəvi elmlərin tədrisini də zəruri sayırdılar. Bunsuz müasir dünyada inkişafın və “zindəganlığın” (H.Zərdabi), yəni normal yaşayışın qeyri-mümkün olduğunu söyləyirdilər.

17.“Füyuzat”çıların milli tərbiyə konsepsiyasına milli özünüdərk, vətənpərvərlik və hürriyyət tərbiyəsi də daxil idi. “Türkləşmək” Ə.Hüseynzadənin triada prinsipinə əsaslanan milli-ideoloji düsturunun birinci fazasını təşkil edir. Baş ideoloqa görə xalq milli kim-

liyini, genetik mənşəyini dərk etməsə, onda milli iman, milli qürur, milli namus, milli ləyaqət, milli təəssübkeşlik, nəhayət, milli müstəqillik duyğusunu yaratmaq mümkün deyil. Ona vətənpərvərlik və istiqlaliyyət hissləri də aşılamaq müşküldür.

18.“Füyuzat” əməkdaşları vətəndaşların mənəvi-əxlaqi cəhətdən zəngin və kamil, əqli (zehni) cəhətdən bilikli, intellektual, erudisiyalı, fiziki cəhətdən sağlam və əməksevər böyüməsini də tərbiyənin əsas amillərindən sayırdılar. Onlar humanizm və beynəlmiləlçilik tərbiyəsi istiqamətində də gərəkli təbliğat işləri aparırdılar.

“Füyuzat” jurnalının pedaqoji fikir və maarifçilik tariximizdə, milli intibah və təkamülümüzdə, təhsil və tərbiyənin demokartikləşməsində oynadığı müstəsna rolu nəzərə alaraq aşağıdakı təkliflərin həyata keçirilməsini vacib hesab edirik:

1.“Azərbaycan məktəb və pedaqoji fikir tarixi” fənnində tədris edilən görkəmli şəxsiyyətlər sırasına “Füyuzat” jurnalının baş mühərriri və ideoloqu Ə.Hüseynzadə haqqında geniş məlumat daxil edilsin.

2.“Füyuzat” jurnalının və “füyuzat”çıların maarifçilik fəaliyyəti ilə bağlı müəllimlik ixtisaslarında bakalavriatlara sərbəst və buraxılış iş mövzuları, magisrtrantlara dissertasiya mövzuları verilsin.

3.“Füyuzat” jurnalında pedaqoji məzmunlu, təlim-tərbiyə ilə əlaqədar xeyli məqalə vardır ki, onlar hələ də translitirasiya edilib nəşr edilməmişdir. Həmin əsərləri toplayıb ayrıca kitab halında çap etdirmək pedaqoji fikir tariximizi öyrənmək üçün əhəmiyyətli iş olardı.

4.Ali məktəblərdə Ə.Hüseynzadənin adını daşıyan tələbə təqaüdünün təsis edilməsi “füyuzat”çılara ehtiram əlaməti olardı.

Tədqiqatın əsas məzmunu aşağıdakı ***elmi məqalələrdə*** öz əksini tapmışdır:

1.”Füyuzat” jurnalında təhsil-tərbiyə məsələləri. Monoqrafiya.Bakı: Elm və təhsil, 2018, 216 s.

2.“Füyuzat”çılar milli özünüdərk və vətənpərvərlik tərbiyəsi haqqında //Azərbaycan Dövlət Pedaqoji Universiteti. Tarix,insan və cəmiyyət, 2018.№ 1(20), s.114-120

3.“Füyuzat” jurnalında əmək və fiziki tərbiyə məsələləri //Pedaqoji Universitenin Xəbərləri, 2018. C66, №1,s.284-290

4. Azərbaycan pedaqoji fikrin inkişafında Əli bəy Hüseynzadənin redaktoru olduğu "Füyuzat" jurnalının rolu / "Əbdül Əlizadə: ənənəvi təhsildən təfəkkür məktəbinə" mövzusunda keçirilən Respublika elmi-praktik konfransının materialları. Bakı: ADPU,2017, s.258-260
5."Füyuzat" jurnalında dini tərbiyə məsələlər / "İslam həmrəyliyi elm və təhsildə. Hədəflər və çağırışlar". Respublika elmi konfransının materiallar. Bakı, 2017, s.86-89
6.Teacher as a leader. //Humanitar elmlərin öyrənilməsinin aktual problemləri ,2013 №2, s.299-302
7.Журнал «Фиюзат» о воспитании и обучении женщин / Науковый вестник международного гуманитарного университета, 2018 № 32,с.144-147
8.Azərbaycanda ictimai-mədəni və pedaqoji mühitin demokratikləşməsində "Füyuzat"çıların rolu /Azərbaycan Respublikası Təhsil İnstitutunun Elmi əsərləri, 2017, cild 84, № 2, s.130-136
9."Füyuzat"ın naşiri Əli bəy Hüseynzadənin həyatı və marifçilik fəaliyyəti //Bakı Qızlar Universiteti. Elmi əsərlər, 2017, №1, s.184-189
10."Füyuzat"çılar mənəvi- əxlaqi, əqli, humanizm tərbiyəsi haqqında //Gəncə Dövlət Universitetinin Xəbərləri, 2018, №2,s.372-377
11.XX əsrin əvvələrində əmək tərbiyəsi nəzəriyəsinin inkişafında "Füyuzat" çıların rolu /"Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda elm konfransının materialları. Qərb Universiteti.6 may 2017,s. 306-309
12.Проблемы педагогики семейного воспитания: генезис становления в истории педагогики //Известия Балтикской государственной академии рыбопромыслового флота:психолого- педагогические науки. Калининград, 2018, №4 (46),с.
13.Рол журнала «Фиюзат» в развитие женского образования в Азербайджане / Вестник Набережночелнинского государственного педагогического университета. Педагогика. Набережные Челны. 2020, № 2 (27), с.15-18
14."Füyuzat" jurnalında müəllim və onun şəxsiyyətinə münasibət problemi /"Müəllim və tələbə münasibətləri: pedaqoji və psixoloji aspektlər"i mövzusunda Respublika elmi konfransı. Sumqayıt,2016, s. 215-217

15.Görkəmli Azərbaycan maarifçisi Əli bəy Hüseynzadə mənəvi-əxlaqi tərbiyə haqqında / Böyük çex pedaqoqu Yan Amos Komenski:təhsildə klassik və  müasir yanaşmalar.Beynəlxalq konfrans.4-5 aprel 2019.Bakı:BDU,2019, s.119-121

Dissertasiyanın müdafiəsi **29 oktyabr 2021-ci il** tarixində saat **12-də** ADPU-nun nəzdində fəaliyyət göstərən Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Ü.Hacıbəyli küçəsi, 68
Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları ADPU-nun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat **28 sentyabr 2021-ci il** tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 27.09.2021
Kağızın formatı: 60x84   1/16
Həcmi: 41771
Tiraj: 100